**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR AZƏRBAYCANIN DÖVLƏT İDARƏÇİLİYİNDƏ MODERNLƏŞMƏNİN BAŞLICA İSTİQAMƏTLƏRİ

İxtisas: 5909.01 – "Dovlət idarəçiliyi"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Vasif Sultan oğlu İsmayılov**

**Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI-2023**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** fəlsəfə elmləri doktoru, professor
**Zaur Səyavuş oğlu Bağırov**

**Rəsmi opponentlər:** siyasi elmlər doktoru, dosent
**Kənan Hüseyn oğlu Allahverdiyev**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Eldar İkram oğlu Aslanov**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Mehman Zahid oğlu Həsənov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, professor
**Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, professor
**Aqiyə Həbib qızı Naxçıvanlı**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Çağdaş dövrümüz qlobal inteqrasiyanın dərinləşməsi, onun iqtisadi sfera ilə bərabər bəşər sivlizasiyasının həyatının siyasi, sosial və mədəni sferalarına sirayət etməsi, informasiya cəmiyyətinə keçid və informasiyanın başlıca əmtəəyə çevrilməsi, ərzaq, şirin su, ekologiya, demoqrafiya, miqrasiya kimi problemlərin qlobal xarakter alması ilə xarakterizə olunur. Transformasiya dinamikasının pik həddə çatdığı bir dövrdə ortaya çıxan problemlərin həlli üzrə qlobal idarəetmə mexanizmlərinin olmaması milli dövlətləri qarşılıqlı təmas şəraitində bəşər sivilizasiyasının gələcəyi üzrə məsuliyyətin yeganə daşıyıcısı olmağa vadar edir. Bu məsuliyyət bütövlükdə dövlət idarəetmə sistemlərini, dövlət institutlarının qlobal problemlərdən irəli gələn çağırışlar şəraitində yeni dünya nizamına uyğunlaşmağa vadar edir. Elmi texniki tərəqqinin sürətli inkişafı informasiyanın yeni kommunikasiya texnologiyaları vasitəsilə sürətli mübadiləsi bu uyğunlaşma prosesinin intensivliyinin artmasına səbəb olur. Digər bir tərəfdən bəşər sivlizasiyasının həyatının bütün sferalarına sirayət edən qloal inteqrasiya, baş verən transformasiyalar sosial toplumların həyatına, dəyər sistemlərinə dünyagörüşünə ciddi təsir edir. Bu isə cəmiyyətdə yeni maraqların və tələblərin formalaşması ilə nəticələnir. Belə bir durumda cəmiyyət qarşısında öhdəlik və vəzifələri olan dövlət institutları və bütövlükdə dövlət idarəetmə sistemi cəmiyyətdən gələn yeni sifarişlərin təsiri altında müəyyən rasional dəyişikliklərə getməyə, ənənəvi idarəetmə mexanizmlərinə yenidən nəzər salmağa, yeni idarəetmə metodlarını və bu metodların realizəsi üçün yeni texnologiyalara müraciət etməyə məcbur olur. Bütün bunlar dövlət idarəetmə sisteminin rasionallaşmasını, transformasiyasını və modernləşməsini zərurətə çevririr. Bu transformasiya prosesinin mürəkkəbliyi ondadır ki, o toplumun həyatının bütün sferalarını nəzərə almalıdır. Bu baxımdan idarəetmə sisteminin modernləşməsi probleminə kompleks nəzərə salmaq, bu prosesin siyasi, iqtisadi, sosial və mədəni təzahürlərini öyrənmək zəruridir. İstənilən halda baş

verən modernləşmə adı çəkilən sahələrdə islahatlarla müşahidə olunur.

Dövlət idarəçiliyi sistemində baş verən modernləşmə əbədi və tarixi bir prosesdir. Buna görə də dövlət idarəçilik sistemində modernləşmə prosesi təkamül və keyfiyyət sıçrayışları vasitəsi ilə baş verir. Dövlət idarəçilik sisteminin modernləşməsinin qanunauyğunluqları hansılardır? Dövlət idarəçilik sisteminin qanunauyğunluqları ölkəmizin konkret tarixi şəraitinə necə uyğunlaşır? Ölkəmiz başqa dövlətlərin dövlət idarəçilik sisteminin modernləşməsi təcrübəsindən nələri götürə bilər? Azərbaycanın müasir siyasi elminin cavab verə biləcəyi bu cür suallar dövlət idarəçilik sisteminin modernləşməsi nəzəriyyəsi üçün olduqca aktualdır.

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının dövlət idarəçiliyi sistemində keyfiyyət sıçrayışları baş verdi. Köhnə totalitar idarəçilik sisteminin yerində demokratik, hüquqi, dünyəvi və unitar dövlət idarəçilik sistemi yaradıldı. Demokratik dövlət idarəçilik sistemləri isə modernləşmə, yeniləşmə əsasında baş verir. Müasir Azərbaycanın demokratik dövlət idarəçiliyindəki modernləşmənin prinsipləri Ümummilli lider Heydər Əliyev tərəfindən yaradılan müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapdı. Heydər Əliyev dövlət idarəçiliyində modernləşmənin Qərb demokratik dəyərləri ilə milli-mənəvi dəyərlərin sintezi əsasında möhkəm bünövrəsini qoydu. Heydər Əliyevin müasir Azərbaycanın demokratik dövlət idarəçiliyində modernləşmənin müəyyən etdiyi başlıca istiqamətlər Prezident İlham Əliyev tərəfindən uğurla və yaradıcı şəkildə davam etdirilir.

Azərbaycanın müstəqillik illəri ərzində ölkə qarşısında yeni perspektivlər açıldı. Ancaq bütün bunlara baxmayaraq bu gün dünyada qlobal miqyasda iqtisadi böhranlar baş verir, kasıb ölkələrdə aclıq hökm sürür, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sosial təlatümlər baş verir. Müasir dünya isə bütün müsbət və mənfi cəhətləri ilə bir-biri ilə sıx surətdə bağlıdır. Bütün bu reallıqlarla böyüklüyündən, kiçikliyindən asılı olmayaraq hamı hesablaşmalıdır. Ölkəni iqtisadi böhrandan və digər fəlakətlərdən yalnız səmərəli və effektli dövlət idarəçiliyi

vasitəsi ilə xilas etmək olar. Prezident İlham Əliyev səmərəli, keyfiyyətli və effektli dövlət idarəçiliyi nəticəsində Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri sırasına çıxarmışdır. Bu baxımdan müasir Azərbaycanın dövlət idarəçiliyinin modernləşdirilməsinin elmi cəhətdən araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Müasir Azərbaycanda aparılan sosial, iqtisadi, siyasi, hərbi islahatlar və mütərəqqi dəyişikliklər nəticəsində Azərbaycanın sosial-iqtisadi cəhətdən dünyanın inkişaf etmiş aparıcı dövlətləri sırasına çıxması dövlət idarəçiliyində uğurlu modernləşmənin nəticəsidir. Azərbaycanın dövlət idarəçiliyində hərbi modernləşmənin uğurları nəticəsində olduqca güclü olan və xristian dünyası tərəfindən müdafiə olunan Ermənistan üzərində qələbə çalındı. Düşmən üzərindəki 44 günlük bu şanlı qələbənin əsasında səmərəli dövlət idarəçiliyi, xalq, müzəffər ali baş komandan və müzəffər ordunun vəhdəti dayanır. Vətən müharibəsindəki qələbənin başlıca səbəblərindən biri də hərbidəki texnoloji və idarəçiliklə bağlı olan moderləşmə idi. Dövlət idarəçiliyinin modernləşdirilməsinin mühüm istiqamətlərindən biri də hərbi-texniki modernləşmə oldu. Hərbi-texniki modernləşmənin uğurları nəticəsində güclü Azərbaycan ordusu yaradıldı.

Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin bərqərar edilməsi nəticəsində dövlət idarəçiliyinin modernləşdirilməsi prosesinin ilkin mərhələsi başa çatmışdır. Artıq Azərbaycan dövlət idarəçiliyində modernləşmə prosesinin yeni mərhələsinə postmodern mərhələsinə daxil olmuş və davamlı inkişafa əsaslanan inklüziv cəmiyyətin əsası qoyulmuşdur. Azərbaycanın dövlət idarəçiliyində modernləşmənin başlıca istiqamətləri - hüquqi, sosial, iqtisadi, aqrar və hərbi modernləşmə paralel olaraq aparılır. Hər bir sahədə aparılan islahatlar bir-birini tamamlayaraq dövlətin və cəmiyyətin gələcək inkişafına səbəb olur, modernləşmə prosesinə yeni impuls verir. Cəmiyyətin sosial, iqtisadi, siyasi və dövlət idarəçiliyindəki modernləşmə müasir Azərbaycan cəmiyyətinin ümumi transformasiyası üçün stimul olur. Bütün bunlar dövlətə, cəmiyyətə və insana münasibətdə müasir dünyanın qlobal proseslərində daha da aktual olur. Həmçinin mühüm bir məsələni qeyd etmək lazımdır ki, modernləşmə istiqamətində qə-

bul edilən hər bir qərar Azərbaycanın dinamik, sosial, iqtisadi və demokratik inkişafına səbəb olur. Buna görə də hazırda dövlət idarəçiliyinin modernləşdirilməsinin başlıca istiqamətləri azad vətəndaşın, təhlükəsiz və etibarlı həyatın, dövlətin sosial, iqtisadi və hüquqi institutlarının intensiv inkişafıdır. Dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi ümumilikdə Azərbaycanın modernləşdirilməsi strategiyasının tərkib hissəsidir.

Azərbaycanın dövlət idarəçiliyində modernləşmənin elmi-nəzəri cəhətdən araşdırılması siyasi elmlərin tədqiqat predmetinə çevrilib. Həmçinin, Azərbaycan Respublikasında demokratik, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşdığı bir şəraitdə dövlət idarəçiliyində modernləşmənin dinamikasının tədqiq edilməsi hazırda bir sıra humanitar və sosial elmlər üçün aktualdır. Son illərdə sosial, iqtisadi, siyasi hüquqi və dövlət idarəçiliyi sahələrində aparılan əsaslı islahatlar humanitar və sosial elmlər sahəsində bu problemə diqqəti daha çox artırıb. Son nəticədə tədqiqat işinin aktuallığı ondan ibarətdir ki, həm dövlət idarəçiliyi sisteminin, həm də cəmiyyətin ayrı-ayrı sahələrinin inkişafı ilə bağlı aparılan dövlət siyasəti, xüsusilə də sosial, iqtisadi inkişafla bağlı dövlət proqramlarının, Milli Prioritetlərin, Milli İnkişaf Strategiyalarının və İstiqamətlərin qəbul edilməsi, Azərbaycanın beynəlxalq siyasətdəki və İkinci Qarabağ müharibəsindəki uğurları və s. yaranmış obyektiv zərurətlə müəyyən edilir.

Bu baxımdan dövlət idarəçiliyinin modernləşməsi problemi müasir Azərbaycan üçün olduqca əhəmiyyətlidir. Bu problem həm siyasətşünas alimlər, həm siyasi elitalar, həm də dövlət xadimləri tərəfindən ardıcıl olaraq həmişə müzakirə edilir. Qloballaşan dünya, iqtisad və siyasi çağırışların permanent təzahürü şəraitində dövlət idarəçiliyinin keyfiyyətindən, vətəndaşların rifah halı, ölkənin gələcəyi və beynəlxalq aləmdəki nüfuzu daha çox asılıdır.

Dövlət idarəçilik sisteminin yeni formalarının bərqərar olmasını ifadə edən modernləşmə prosesləri kifayət qədər tədqiq edilməmişdir. Siyasi elmin başlıca vəzifələrindən biri təkcə dünya siyasətində baş verən keçmiş və müasir hadisələrin təhlilini vermək deyil, həm də gələcək ictimai-siyasi inkişafın ehtimal olunan proqnozlarını verməkdir. Dövlət idarəçiliyi sahəsində baş verən mümkün

dəyişikliklər və sosial proqnozlaşdırma problemləri siyasi modernləşmənin ən aktual vəzifələrindən biridir. Çünki istənilən modernləşmə və ya cəmiyyətin müasirləşməsi hər şeydən əvvəl müasirliyin gələcəklə əlaqəsini də nəzərdə tutur.

Modernləşmə problemləri ilə bağlı həm Qərb tədqiqatçıları, həm də rus tədqiqatçıları kifayət dərəcədə tədqiqat işləri aparmışlar və hazırda da aparırlar.

«Modernləşmə» anlayışı elmə XX əsrin 50-60-cı illərində İsrail tədqiqatçısı Şmuel Eyzenştadt tərəfindən gətirilmişdir. Alman filosofu Y. Xabermas «modern» sözünün mənşəyi ilə bağlı qeyd edir ki, o, ilk dəfə Avropada V əsrin sonlarında xristianlığın rəsmi status alması ilə onun keçmiş Roma bütpərəstliyindən fərqləndirilməsi məqsədi ilə işlədilmişdir, sonrakı dövrlərdə müasir mənasına gəlmişdir. Modernləşmə anlayışının tədqiqinə Q.Almond və D.Pauell, M.Lipset, Ş.Eyzenştadt, Qərb tədqiqatçıları əsər və monoqrafiyalar həsr etmişlər. Modernləşmə nəzəriyyəsi iki başlıca istiqamətə ayrılır: liberal və konservativ istiqamətlər. Modernləşmənin liberal istiqamətinin nümayəndəsi Q.Almond ictimai inkişafın universal mənzərəsindən çıxış edərək qeyd edir ki, bütün ölkələr vahid bir sxem və nümunə üzrə inkişaf edirlər. Onun başlıca əlamətləri bazar iqtisadiyyatı, açıq cəmiyyət, yeni informasiya texnologiyaları, kommunikasiya şəbəkələrinin inkişafı, sosial mobillik, rasionallıq, plüralizm, demokratiya və azadlıq olmalıdır. Modernləşmə nəzəriyyəsinin mühafizəkar istiqamətinin nümayəndələri, xüsusilə də S.Hantinqton modernləşmə prosesinin daxili ziddiyyətlərinə siyasi iştirakla bağlı münaqişələrə və institusionallaşmaya, siyasi stabilliyin və qayda-qanunun qorunmasına, inkişaf etməkdə olan ölkələrin, o cümlədən MDB ölkələrinin milli və tarixi inkişaf xüsusiyyətlərinin uyğun xarakterinə və istiqamət proseslərinə daha çox diqqət yetirirlər.[1]

---

[1] Эйзенштад Ш. Революция и преобразование обществ: Сравнительное изучение цивилизаций. /Ш. Эйзенштад. – Москва: Аспект Пресс, - 1999. – 415 с.; Хабермас Ю. Модерн-незавершенный проект. /Пер. с. нем. А.Б.Григорьева //Вопросы философии. Москва. – 1992. №4, - с. 40-58.; Алмонд Г., Пауэлл, Дж. Сравнительная политология сегодня. Мировой обзор / Г.Алмонд, Дж.Пауэлл. – Москва: Аспект Пресс, - 2002. – 537 с. – ISBN.; Липсет М. Политический

Tədqiqatçılar çox zaman siyasi, iqtisadi, sosial, kulturoloji və s. modernləşməyə ayrı-ayrı müstəqil proseslər kimi baxırlar. Rus tədqiqatçıları modernləşmənin ayrı-ayrı sahələrinə iri həcmli tədqiqat əsərləri həsr etmişlər. Rus tədqiqatçılarından İ.V.Poberejnikov, S.N.Qavrov, Y.A.Xolodenko, E.V.Talapina, A.V.Lyaxov, V.V.Lobanov, Y.V.Skvortsova, R.İnqlxart, K.Veltsel kimi müəlliflər modernləşmə nəzəriyyəsi, modernləşmənin nəzəri və metodoloji problemləri, modernləşmə nəzəriyyəsi və müasirlik, demokratik modernləşmə və milli mədəniyyət, Rusiya dövlətinin modernləşməsi, keçid dövründə modernləşmə, qloballaşma şəraitində modernləşmə problemləri ilə bağlı tədqiqat əsərləri, monoqrafiyalar, elmi məqalələr, avtoreferatlar yazmışlar. Rus tədqiqatçılarından İ.Busigina, M.Filippov, V.A.Zimin, siyasi modernləşmənin nəzəri-metodoloji problemlərinə aid araşdırmalar aparmışlar. Rusiya dövlətçiliyində iqtisadi modernləşməyə aid V.S.Belıx, İ.V.Makarova tədqiqat əsərləri yazmışdır. Rusiya dövlətçiliyində hüquqi modernləşmənin elmi-nəzəri əsaslandırılması ilə bağlı Y.V.Skvortsova, E.V.Talapina [141], tərəfindən tədqiqat işləri yazılmışdır. Y.A.Xolodenko sosial modernləşməyə və sosial dövlətin yaradılması və formalaşdırılmasına aid tədqiqat əsərləri həsr etmişdir. Rus tədqiqatçılarından həmçinin E.V.Talapina, Q.L.Kupryaşin, V.V.Lobanov, S.Plaksin, A.Julin, V.A.Potexin, Q.V.Atamançuk, O.M.Roy Rusiya dövlət idarəçiliyinin modernləşdirilməsinin müxtəlif aspektlərini tədqiq etmişlər.[2]

---

человек: социальные основания политики /М. Липсет: пер. с англ. Е.Г.Генделя, В.П. Гайдамака, А.В.Матеншук. – Москва: Мысль, 2016. – 612 с.; Хантингтон С. Ф. Политический порядок в меняющихся обществах / С. Ф. Хантингтон. – Москва: Прогресс – Традиция, - 2004. – 480 с.

[2] Побережников И. В. Модернизация: теоритические и методологические проблемы //-Москва: Экономическое история. Обозрение (под. ред. Лю. И. Бородкина), - 2001. вып. 7, - с. 163-169.; Гавров С. Н. Модернизация России: постимперский транзит. Монография /С. Н. Гавров. – Москва: МГУДТ, - 2010. – 269 с.; Холоденко Ю.А. Модернизация социальной политики современного Российского государства //-Москва: Вестник Московского Университета. Серия 18. Социология и политология, - 2014. №4, с. 99-108.; Талапина Э.В. Модернизация государственного управления в информационном обществе: информационно-правовые исследования: /автореферат дисс. на соис. уч. степени д-ра юридических наук. / - Москва, 2015. - 53 с.; Ляхов А. В.

Müasir Azərbaycanın dövlət idarəçilik sisteminin modernləşməsinin elmi araşdırması hələ kifayət dərəcədə aparılmamışdır və iri həcmli tədqiqat əsərləri yazılmayıb. Problemlə bağlı elmi ədəbiyyatları təhlil edərkən qeyd etmək lazımdır ki, dissertasiya işi yazılarkən Ümummilli lider Heydər Əliyevin nitqləri, çıxışları, bəyanatları, müsahibələri, imzaladığı qərarlar və sərəncamların toplusu olan «Müstəqilliyimiz əbədidir» çoxcildliyindən, həmçinin Prezident İlham Əliyevin «İnkişafımız məqsədimizdir» çoxcildliyində irəli sürdüyü konsepsiyalardan və imzalayıb təsdiq etdiyi inkişaf strategiyalarından istifadə olunmuşdur.

---

Модернизация в условиях глобализирующегося политического пространства (теоретико-методологический анализ): /автореферат дисс. на соиск. уч. степени канд. политический наук. /-Москва, 2009. – 26 с.; Лобанов В. В. Модернизация государственного управления: проблемы и решения // - Москва: Вопросы государственного и муниципального управления, - 2010. - №2, с. 136-145.; Скворцова Ю. В. Модернизация правовой системы России: теоретико-методологический аспект. Монография / Ю.В.Скровцова. – Москва: РУДН, - 2012. – 355 с.; Инглхарт Р., Вельцель К. Модернизация, культурные изменения и демократия: последовательность человеческого развития /Р.Инглхарт, К. Вельцель. – Москва: Новое Издательство, - 2011. – 464 с.; Бусыгина И., Филиппов М. Политическая модернизация государства в России: необходимость, направления, издержки, риски /И. Бусыгина, М. Филиппов. – Москва: Фонд «Либеральная Миссия», - 2012. – 224.; Зимин В. А. Политическая модернизация в России /В. А. Зимин. – Самара: Издательство Самарского научного центра Российской академии наук, - 2012. – 155 с.; Белых В.С. Модернизация экономики: понятие, цели и средства //-Екатеринбург: Бизнес, менеджмент и право, - 2011. №1(23), - с. 45-49.; Макарова И. В. Потенциал модернизации машиностроительного комплекса региона / И. В. Макарова . – Екатеринбург: Институт экономики УрО РАН, - 2010. – 289 с.; Купряшин Г.Л. Модернизация государственного управления: институты и интересы /Г. Л. Купряшин. – Москва: Издательство Московского университета, - 2012. - 312 с.; Плаксин М., Жулин А. Пути модернизации государственного аппарата: административная реформа и реформа государственной гражданской службы //-Москва: Вопросы экономики, 2008. №2, - 73-82.; Потехин В.А. Модернизация государственного управления: основные направления и инновации //-Москва: Вестник Российского университета дружбы народов, серия Социология, - 2011. - №2, с. 110-117.; Атаманчук Г. В Теория государственного управления: учебник / Г. В. Атаманчук . – 4-е изд., стер. - Москва: Омега – Л, - 2014. – 525 с.; Рой О.М. Система государственного и муниципального управления: учебное пособие / О.М.Рой. 3-е изд. -Санкт Петербург: Питер, - 2018. – 369 с.

13 yanvar 2010-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda «Prezident İlham Əliyevin modernləşmə xətti və fəlsəfənin, sosiologiyanın və hüququn əsas prioritetləri» mövzusunda dəyirmi masa» keçirilmişdir. «Dəyirmi masada» ictimai və humanitar elmlərin modernləşməsi problemləri müzakirə edilmişdir.

21 dekabr 2011-ci ildə Bakı şəhərində dünyanın 30-dan artıq ölkəsindən gəlmiş siyasətçilər, alimlər, ictimai xadimlərin iştirakı ilə «Modernləşmə siyasəti: yeni iqtisadi və sosial çağırışlar» mövzusunda keçirilən beynəlxalq konfransda bəşəriyyətin üzləşdiyi qlobal problemlər, ənənəvi iqtisadi və sosial inkişaf modelinə yenidən baxılmasını tələb edən məsələlər müzakirə obyekti olmuşdur. Prezident İlham Əliyev beynəlxalq konfrans iştirakçıların müraciətində demişdir ki, «Müasirləşmək, yeniləşmək siyasətimizin əsas mənasını, bizi inkişafa aparan yolun baş xəttini təşkil edir».[3]

Azərbaycan tədqiqatçılarından U.Ələkbərov, Ə.Nuriyev, R.Mehdiyev, V.Qasımlı, R.Rəhimli, S.Məmmədova, A.Musayev, E.Aslanov, H.Rəcəbli, Ə.Babayev, N.Hüseynova, M.Quliyev Azərbaycanda modernləşmə prosesinin müxtəlif aspektlərinə əsər, monoqrafiya, dərslik və məqalələr həsr etmişlər. Qeyd olunan tədqiqatçılar dövlət idarəçilik sisteminin və cəmiyyətin ayrı-ayrı sahələrinin modernləşməsi məsələlərini tədqiq etmişlər.

Azərbaycanda dövlət idarəçilik sisteminin effektli modernləşməsi nəticəsində inklüziv inkişafa əsaslanan cəmiyyətin əsası qoyulmuşdur. U.Ələkbərov «İnklüziv inkişafın idarə edilməsinin əsasları» adlı əsərində qeyd edir ki, inklüziv inkişaf dedikdə, dövlətin tərəqqisinin elə yolu başa düşülür ki, ölkənin hərtərəfli inkişafı həyata keçirilir və bu prosesin müsbət nəticələrini bütün vətəndaşlar hiss edir. Dövlətin hərtərəfli inkişafını və bütün ölkə vətəndaşlarının rifahının yüksəldilməsini təmin edən inklüziv inkişaf müasir dövlət idarəçiliyinin başlıca

---

[3] Əliyev İlham. «Modernləşmə siyasəti: yeni iqtisadi və sosial çağırışlar» mövzusunda beynəlxalq konfransın iştirakçılarına 21 dekabr 2011-ci il tarixli müraciəti: [Elektron resurs] Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. - Bakı, 2011. president.az/articles/3835/print

prioritetlərindəndir. 2018-ci ildə Davosda keçirilən Ümumdünya İqtisadi Forumu dünya ölkələrinin İnklüziv İnkişaf İndekslərini dərc etmişdir. Həmin sənədə əsasən Azərbaycanın inklüziv inkişaf indeksi 4,69-a bərabərdir və ölkəmiz keçid iqtisadiyyatına malik ölkələr arasında dünyada üçüncü yeri tutur. Azərbaycanda inklüziv inkişaf indeksləri iqtisadi cəhətdən daha çox inkişaf etmiş ABŞ, Yaponiya, İtaliya, İsrail, İspaniya, Portuqaliya, həmçinin Türkiyə, Rusiya və başqa ölkələrin inklüziv inkişaf indekslərini geridə qoymuşdur. V.Qasımlı «İqtisadi modernizasiya» adlı tədqiqat əsərində Azərbaycanda iqtisadi modernləşmə problemlərini, xüsusilə aqrar sahənin modernləşdirilməsinin xüsusiyyətlərini təhlil etmişdir, Ə. Nuriyev «Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları» adlı monoqrafiyasında iqtisadi modernləşmənin xüsusiyyətlərini və başlıca istiqamətləri məsələlərini araşdırmışdır. R.Mehdiyev Azərbaycanda modernləşmənin səciyyəvi xüsusiyyətlərini «Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti» əsərində təhlil etmişdir.

Ümumiyyətlə tədqiqatçı alimlər Azərbaycanda iqtisadi modernləşmənin inkişafını ayrı-ayrı mərhələlərə bölürlər. R.Cəbiyev iqtisadi modernləşməni iki dövrə – birinci, 1991-1995-ci illərə, ikinci, 1996-cı il və sonrakı illərə bölür, İ.Mehdiyev isə iqtisadi modernləşmə prosesini üç dövrə – birinci, 1991-1993-cü illərə, ikinci, 1993-1995-ci illərə, üçüncü, 1996-cı və sonrakı illərə bölmüşdür.

Bir qrup tədqiqatçılar Azərbaycanda siyasi modernləşmə ilə bağlı tədqiqat işləri apararaq elmi məqalələr yazmışlar. E.Aslanov «Siyasi modernləşmənin tarixi tipləri, təkamülü, dinamikası və meyarları», «Siyasi modernləşmə: beynəlxalq nəzəriyyə və milli təcrübə», X.Niyazov «Azərbaycanda siyasi modernləşmənin xüsusiyyətləri, elmi məqalələrində Azərbaycanda siyasi modernləşmənin xüsusiyyətlərini təhlil etmişlər.

Azərbaycanda sosial modernləşmə problemləri, sosial siyasət, sosial dövlətin yaranması və formalaşması məsələləri ilə bağlı S.Məmmədova, H. Rəcəbli, N.Məmmədov, Ş.Mirzəbəyova əsər, monoqrafiya, dərslik və elmi məqalələr yazmışlar. Bu müəlliflər əsasən sosial dövlətin bərqərar edilməsi problemlərinə diqqət yetirmişlər.

Dövlət İdarəçilik sisteminin modernləşməsi prosesinin tərkib hissəsi olan mədəni modernləşmə problemi F.Məmmədov, «İdarəetmə mədəniyyəti: xarici ölkələrin təcrübəsi» monoqrafiyasında, təhsilin modernləşməsi problemi H.Əhmədovun «Qloballaşma, modernləşmə və innovasiyalı təhsil sisteminin paradiqması» məqaləsində təhlil edilmişdir.

Azərbaycanda dövlət idarəçilik sisteminin modernləşməsi probleminin müxtəlif aspektləri U.Ələkbərov, R.Rəhimli, Z.Həbibova və M.Həsənovun birgə hazırladıqları «İnsan potensialına əsaslanan sosial müəssisələr Azərbaycanda davamlı innovativ inkişaf texnologiyası kimi» adlı tədqiqat əsərində, R. Rəhimlilinin «Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi» adlı elmi məqaləsində, N. Hüseynovanın «Dövlət qulluğu və idarəetmə» əsərində, S.Qayıblının «Azərbaycanın dövlət idarəçiliyinin modernləşməsi Avropaya inteqrasiya fonunda» elmi məqaləsində işlənmişdir.[4]

[4] Ələkbərov U.K.Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları: Ali məktəblər üçün dərslik /U.K.Ələkbərov. – Bakı: Təhsil, - 2013. – 224 s.; Ələkbərov U.K. İnsan inkişafının əsasları. Ali məktəblər üçün dərslik /U. K. Ələkbərov. – Bakı: Aspoliqraf, - 2016. – 280 s.; Ələkbərov U.K.İnklüziv inkişafın idarə edilməsinin əsasları. Ali məktəblər üçün dərslik /U.K. Ələkbərov. – Bakı: Təhsil, - 2018. – 216 s.; Ələkbərov U.K., Rəhimli R.Z., Həbibova Z.Z., Həsənov M. İ. İnsan potensialına əsaslanan sosial müəssisələr Azərbaycanda davamlı innovativ inkişaf texnologiyası kimi /U.K.Ələkbərov, R.Z.Rəhimli, Z.Z.Həbibova, M.İ.Həsənov– Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, - 2018. – 184 s.; Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları /Ə.X.Nuriyev. – Bakı: Avropa, - 2013. – 422 s.; Mehdiyev R.Ə. XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində //- Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, - 2012. №2(38), - s.144-152.; Mehdiyev R.Ə. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti /R.Mehdiyev – Bakı: Şərq-Qərb, - 2008. – 216 s.; Qasımlı V. Ə. 2019-cü il inqilabi sosial islahatlar ili kimi yadda qalacaq // Xalq. – 2019, 24 iyun.; Qasımlı V.Ə. İqtisadi modernizasiya / V. Ə. Qasımlı – Bakı:- [n. y.], 2014. – 311s.; Rəhimli R.Z. Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi //Azərbaycan. – 2019, 23 iyun; Rəhimli R.Z. Azərbaycan Respublikasının idarəetmə sistemində yerli özünüidarələr [Mətn]: [Monoqrafiya] /R. Rəhimli; elmi red. İ.Hacıyev. – Bakı: Elm, - 2009. – 168 s.; Məmmədova S.D.Azərbaycanda sosial dövlət: inkişafı, perspektivləri /S. Məmmədova. – Bakı: Avropa, - 2017. – 232 s.; Musayev A.F.Modernləşdirmə və aktiv vergi siyasəti //- Bakı: Azərbaycanın vergi jurnalı, - 2012. №6, - s. 71-84.; Aslanov E. Siyasi modernləşmə: beynəlxalq nəzəriyyə və milli təcrübə //-Bakı: SAM Strateji təhlil, - 2012. №4, -s. 27-47.; Aslanov E. Siyasi

Ümumilikdə isə, problemlə bağlı qeyd olunan elmi ədəbiyyatların təhlili göstərir ki, dövlət idarəçilik sisteminin modernləşməsi problemi həm xarici müəlliflərin, həm də Azərbaycan müəlliflərinin əsərlərində xüsusi yer tutur. Ancaq, problemin müxtəlif aspektləri öyrənilsə də, Azərbaycanın dövlət idarəçilik sistemində modernləşmənin başlıca istiqamətləri siyasi elmdə kifayət dərəcədə tədqiq edilməmişdir. Bu baxımdan təqdim edilən dissertasiya işi əhəmiyyətli olmaqla bərabər, siyasi elm sahəsində maraq doğura bilər və bu sahədə elmin gələcək inkişafına dəyər verə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir Azərbaycan dövlətinin idarəçilik sistemində və cəmiyyətin müxtəlif

---

modernləşmənin tarixi, təkamülü, dinamikası və meyarları//-Bakı: Tarix və onun problemləri, - 2014. №1, - s. 224-229.; Rəcəbli H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Ali məktəblər üçün dərs vəsaiti / H.Rəcəbli. – Bakı: MBM, - 2012. – 408 s.; Babayev Ə. İqtisadi inkişafdan modernləşməyə doğru: Prezident İlham Əliyevin müəllifi olduğu «İnkişafın Azərbaycan modeli» dünya miqyasında dövlətin ən uğurlu tərəqqi nümunəsi kimi qəbul edilir //Azərbaycan. – 2010. – 12 oktyabr. s. 2.; Hüseynova N. Ş. Dövlət qulluğu və idarəetmə /N. H. Hüseynova. – Bakı: 2018 - 258 s.; Hüseynova N. Ş. Dövlət qulluğu və kadr siyasəti / N. Ş. Hüseynova, - Bakı: Adiloğlu, 2013, - 476 s.; Hüseynova N. Ş. İdarəetmədə müasir islahatların əsas istiqamətləri: şəffaflıq, asan xidmət, vətəndaş məmnunluğu // Azərbaycan. – 2014, 21 fevral.; Quliyev M. Sosial dövlətin Azərbaycan modeli //Xalq qəzeti. – 2017, 2 avqust.; Джабиев Р. Социально-экономическое развитие Азербайджанской Республики за годы независимости /Р. Джабиев. – Баку: Зия, - 2005. – 283 с.; Мехтиев И. А. Инвестиционная структура Азербайджана и ее влияние на развитие экономики /И. А. Мехтиев. Междунар. Акад. Инвестиций и Экономики Строительства (МАУЭС). – Москва: Макс-Пресс, - 2004. - 220 с.; Niyazov X. Azərbaycanda siyasi modernləşmənin xüsusiyyətləri // - Bakı: Sosium, - 2016. №5(35), - s. 34-39.; Məmmədov H. Dövlət qulluğu dövlət idarəetmə mexanizminin mühüm elementi kimi //- Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elmi əsərləri, - 2019, №3, s. 271-279.; Mirzəbəyova Ş. Modernləşmə prosesinin ziddiyətiləri: sosial ədalət problemləri //- Bakı: İpək yolu, 2017. №3, s. 141-150.; Məmmədov F. T. İdarəetmə mədəniyyəti: xarici ölkələrin təcrübəsi /F. T. Məmmədov. – Bakı: Apostrof Çap Evi, - 2013. – 672s.; Əhmədov H. Qloballaşma, modernləşmə və innovasiyalı təhsil sisteminin paradiqması //Azərbaycan müəllimi. - 2020, 31 iyul.; Гаиблы С. Модернизация государственного управления Азербайджана на фоне Европейской интеграция: [Elektron resurs]: - Киев, 2015. pi.iod.gov.ia/images/pdf/2015-2/12. pdf.

sahələrində baş verən modernləşmə prosesi və bu prosesin reallaşdırılmasında dövlət siyasəti, predmetini isə dövlət idarəçiliyin modernləşmənin başlıca istiqamətləri, onların formalaşması və həyata keçirilməsi mexanizmləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi Azərbaycan Respublikasının dövlət idarəçiliyində modernləşmənin şərtlərini, xüsusiyyətlərini, başlıca prioritet istiqamətlərini, həmçinin müasir qlobal dünyada onun effektli fəaliyyətinin tendensiya və perspektivlərini müəyyən etməkdir. Qarşıya qoyulmuş məqsəddən irəli gələn vəzifələr aşağıdakılardır:

- dövlət idarəçiliyi sisteminin modernləşməsinin nəzəri-metodoloji əsaslarını tədqiq etmək;
- modernləşmə anlayışının sosial-siyasi mahiyyətinin təhlilini vermək;
- dövlət idarəçiliyi sistemində effektivliyin yüksəldilməsi metodlarını müəyyən etmək;
- Azərbaycanın dövlət idarəçiliyində modernləşmə prosesinin inkişaf tendensiyalarını tədqiq etmək;
- Azərbaycanın dövlət idarəçiliyində modernləşmənin prioritet istiqamətlərinin mahiyyətini açmaq;
- dövlət idarəçiliyində modernləşmənin hüquqi əsaslarının təhlilini vermək;
- dövlət idarəçiliyində iqtisadi modernləşmənin spesifik xüsusiyyətlərini müəyyən etmək;
- dövlət idarəçiliyində sosial modernləşmənin mahiyyətini açmaq və sosial dövlətin bərqərar edilməsinin siyasi təhlilini vermək.

**Tədqiqat metodları.** Dissertasiya işi hazırlanarkən ümumelmi metodlardan, xüsusilə də Azərbaycanın dövlət idarəçiliyinin və vətəndaş cəmiyyətinin siyasi təhlilində institusional və tarixi yanaşma, müqayisəli (komporativ) təhlil metodlarından, həmçinin ilkin mənbələrin nəzəri və tarixi təhlili, struktur-təhlil və sistemli yanaşma, iqtisadi məlumatların ümumiləşdirilməsi, məlumatların statistik təhlili və s. metodlarından istifadə edilmişdir. Həmçinin, sosioloji tədqiqat metodlarından, xüsusilə də Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikası Prezidentinin Fərman, Sərəncam və Qərarlarının,

Dövlət Proqramlarının, Qanunların, Milli Konsepsiya və Strategiyaların təhlilində kontent-analiz metodundan istifadə edilmişdir.

Ümumiyyətlə dövlət idarəçiliyinin modernləşdirilməsinin nəzəri-metodoloji əsaslarını struktur-funksional yanaşma, sosial-idrak və sosial reallığın öyrənilməsi, dövlət idarəçiliyinin tədqiqində tarixilik metodları, həmçinin təkamül, analitik, induktiv-ehtimal və hipotetik-deduktiv metodları təşkil edir.

Dövlət idarəçiliyinin effektivliyinin yüksəldilməsinin təhlilində kibernetik və sinergetik yanaşma metodlarından da istifadə edilmişdir. Kibernetik və sinergetik yanaşma metodlarının çıxış nöqtəsini təşkilatların aşkarlığı və ətraf mühitə fəal qarşılıqlı təsiri təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işinin müdafiəyə çıxarılan əsas müddəaları aşağıdakılardır:

- Beş min illik tarixə malik olan Azərbaycanın dövlət idarəçilik sistemində müxtəlif dövrlərdə təkamül və tərəqqi yolu ilə modernləşmə prosesi baş vermişdir.
- Müasir Azərbaycanın dövlət idarəçiliyinin modernləşmə prosesi özünün yeni mərhələsinə, postmodern mərhələsinə daxil olmuş və davamlı inkişafa əsaslanan inklüziv cəmiyyətin əsası qoyulmuşdur.
- Müasir Azərbaycanın dövlət idarəçiliyində baş verən modernləşmə müsəlman Şərqində ilk demokratik dövlət idarəçiliyi sistemi yaradan Azərbaycan Xalq Cümhuriyyətinin dövlət idarəçilik sisteminin siyasi varisidir.
- Müasir Azərbaycanın dövlət idarəçilik sistemindəki modernləşmənin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası təşkil edir.
- Müasir Azərbaycanın dövlət idarəçiliyində modernləşmənin başlıca istiqamətlərini hüquqi, sosial, iqtisadi, mədəni və s. modernləşmə təşkil edir.
- Müasir Azərbaycanın dövlət idarəçiliyində uğurlu modernləşmə nəticəsində demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti yaradılmışdır.
- Aparılan uğurlu sosial-iqtisadi modernləşmə nəticəsində Azərbaycanda güclü sosial dövlətin bünövrəsi qoyulmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi dövlət idarəçilik sisteminin modernləşməsi probleminin kompleks təhlilindən ibarətdir. Kompleks təhlil dövlət idarəçiliyində modernləşmənin nəzəri-praktiki tərəflərinin vəhdətini nəzərdə tutur. Tədqiqat işinin elmi yeniliyi siyasi idarəetmədə modernləşmənin vacibliliyi, qaçılmazlığı, dövlət idarəetməsində cahabdehlik, dövlət idarəetməsinin effektivliyinin nəzəri konseptual məsələlərinin, həmçinin də Azərbaycanın dövlət idarəçilik sistemində aparılan modernləşmənin əsas səbəbləri, şərtləri, meyarları, istiqamətləri və formalarının üzə çıxarılmasıdır. Ayrı-ayrı tədqiqat mərkəzlərinin dövlət idarəetməsində modernləşmənin effektivliyini göstərən tədqiqatlarının nəzəri -praktiki doğruluğunu da təhlil etmək işin elmi yeniliyi sayıla bilər. Bütövlükdə elmi yenilik tədqiqat probleminin quruluşu ilə müəyyənləşdirilmişdir:

- Azərbaycanın dövlət idarəçilik sisteminə müasir çağırışlar və bu kontekstdə dövlət idarəçiliyində modernləşmənin əsas meyarları, səbəbləri, şərtləri və formaları üzə çıxarılmışdır;
- İdarəetmə fəaliyyətinin effektivliyinin dövlət idarəçiliyi sisteminin modernləşdirilməsinin əsas meyarı kimi xarakterik əlamətləri müəyyən edilmişdir;
- Azərbaycanın dövlət idarəçilik sistemindəki modernləşmənin tarixi bir prosesə malik olması nəzəri cəhətdən əsaslandırılmışdır;
- Müasir Azərbaycanın dövlət idarəçiliyi sistemində modernləşmənin başlıca istiqamətləri müəyyən edilmiş və onların hüquqi əsaslarının təhlili verilmişdir;
- Azərbaycanın dövlət idarəçiliyi sistemində innovasiyalara əsaslanan iqtisadi modernləşmənin spesifik xüsusiyyətləri müəyyənləşdirilmişdir;
- Sosial dövlətin bərqərar edilməsinin sosial moderləşmə prosesində baş verməsi, Azərbaycan Respublikasının dövlət idarəçiliyində sosial modernləşmənin həyata keçirilməsinin məqsəd deyil, proses olması məsələləri elmi cəhətdən əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticə, elmi yenilik və irəli sürülən müddəalardan siyasi elm sahəsinin tədqiqatçıları bəhrələnə bilər. Tədqiqat işinin praktiki əhəmiyyətinə gəldikdə isə onun

nəticələrindən «Politologiya» ixtisası üzrə fənlərin tədrisində, müvafiq dövlət proqramlarının, dərslik və tədris proqramlarının hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələrinin tətbiqi.** Tədqiqat işinin məzmunu, nəticələri və irəli sürülən müddəaları müəllifin doktorant və dissertantların elmi-praktiki konfranslarındakı məruzə və çıxışlarında, eləcə də Azərbaycanda və xaricdə dərc olunmuş elmi məqalələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Dövlət qulluğu və kadr siyasəti» kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və işarə ilə ümumi həcmi.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya işi giriş (25183 şərti işarə), 2 fəsil (birinci fəsil üç paraqraf – 75614 şərti işarə; ikinci fəsil üç paraqraf – 121526 şərti işarə;) nəticə (9278), istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin ümumi həcmi 270403 şərti işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə tədqiqat işinin mövzusunun aktuallığı və işlənmə dərəcəsinin təhlili verilmiş, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyən edilmiş, tədqiqat işi yazılan zaman istifadə olunan müvafiq tədqiqat metodları qeyd olunmuş, müdafiəyə çıxarılan əsas elmi müddəalar əsaslandırılmış, tədqiqatın elmi yeniliklərinin konkret mahiyyəti açılıb göstərilmiş, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti verilmişdir.

Dissertasiya işinin **«Dövlət idarəçiliyinin modernləşdirilməsi probleminin nəzəri-metodoloji əsasları»** adlanın birinci fəsli üç yarımfəsildən ibarətdir.

Birinci fəslin **«Modernləşmə anlayışının elmi-nəzəri mahiyyəti»** adlı birinci yarımfəslində ümumilikdə modernləşmə anlayşının

meydana gəlməsi və inkişafı ilə bağlı nəzəriyyə, konsepsiya və paradiqmalara nəzər yetirilərək təhlil edilmişdir. Dövlət idarəçiliyinin modernləşdirilməsi ilə bağlı Qərb tədqiqatçılarının nəzəryyə və konsepsiyalarına geniş yer verilmişdir. Qeyd olunur ki, ənənəvi dövlət idarəçiliyi praktikada «Yeni Dövlət İdarəçiliyi» adı altında 1990-cı illərdən fəaliyyət göstərməyə başladı. Bununla da Yeni Dövlət İdarəçiliyi ilə idarə olunan modernləşmə hərəkatı surətləndi. Yeni Dövlət idarəçiliyinin modernləşməsi yeni təcrübə və konsepsiyaların yaranmasına səbəb olaraq dövlət idarəçiliyində paradiqma dəyişikliyini zəruri etdi.

Ümumi qəbul edilmiş anlayışa görə, yeni dövlət idarəçiliyi yanaşması siyasətdən fərqli olaraq idarəetməyə də keçidi ifadə edir. Ənənəvi dövlət idarəçiliyinə alternativ olaraq yaranan yeni dövlət idarəçiliyi yanaşması çevik və istirakçı idarəetməyə, lokallaşmağa, sahibkar-menecer münasibətlərinə, səmərəlilik və məhsuldarlığa əsaslanır.

Dövlət idarəçiliyinin modernləşməsi anlayışının dünyada əvvəlcə inkişaf etmiş ölkələrdə, sonra isə digər ölkələrdə tətbiq olunmağa başlamışdır. Lakin dünyanın bir çox ölkələrində dövlət idarəçidiyinin modernləşdirilməsi sahəsində aparılan islahatlar müxtəlif ölkələrdə oxşar mahiyyətə malik olsalar da, həyata keçirilməsi və mənası baxımından bir-birindən fərqlənir. Hər bir ölkənin özünəməxsus mədəniyyəti milli xüsusiyyətləri və sosial strukturları dövlət idarəçiliyinin modernləşdirilməsi sahəsində aparılan islahatlara öz təsirini göstərir.

Dövlət idarəçiliyinin modernləşməsi ilə bağlı müxtəlif elmi-nəzəri yanaşmalara, nəzəriyyə və paradiqmalara baxmayaraq, yeni dövlət idarəçiliyi yanaşması ümumi-nəzəi prinsiplər əsasında formalaşmışdır. Bu kontekstdə bir çox ölkələrdə inzibati sistemlər (bürokratik modellər), ənənəvi dövlət idarəetmə sistemlərində kardinal dəyişikliklər edilərək yenidən qurulmuşdur.

Dissertasiya işinin birinci fəslinin ikinci yarımfəsli **«İdarəetmə sisteminin modernləşdiriməsi meyarları»** adlanır. Bu yarımfəsildə bildirilir ki, ənənəvi dövlət idarəetməsi ilə yeni dövlət idarəetməsi anlayışları arasındakı fərqin müəyyən edilməsində ən mühüm amil ənənəvi dövlət idarəçiliyi modelində baş verən dəyişikliklərin göstərilməsidir. Dövlət idarəçiliyində aparılan islahatlar əsasında yaranan yeni

idarəetmə sistemi baş verən yeni dəyişikliklərə uyğun olaraq formalaşır. Yeni idarəetmə sistemində baş verən dəyişiklikləri idarə etmək üçün yeni idarəedici vasitələr inkişaf etdirilir. Qloballaşma şəraitində dövlət idarəçiliyində baş verən modernləşmələr ümumi konsersiyalar əsasında yeni idarəetmə sistemləri formalaşmağa başlasa da, hər bir ölkədə yeni idarəetmə sistemlərinə keçid, tələblər və nəticələr eyni ssenari əsasında baş vermir. Yeni dövlət idarəetməsi sisteminin yaradılmasına milli mədəniyyət, yerli inkişaf şəraiti, dövlət idarəçiliyi ənənəsi, vətəndaşların tələbləri, ixtisaslı kadrların və təcrübəli idarəçilərin, görkəmli dövlət xadimlərinin mövcud olması kimi meyarlar mühüm təsir göstərir.

Praktikada dövlət idarəçiliyinin səmərəliliyinin ölçülməsinin düzgünlüyünü müəyyən edən bir sıra meyarlardan istifadə olunur. Bu baxımdan dövlət idarəçiliyinin səmərəliliyinin qiymətləndirilməsinin elmi metod və meyarlarının işlənib hazırlanmasında inkişaf etmiş dünya dövlətləri kifayət zəngin təcrübə toplanıb. Belə tədqiqatların aparılmasında dünyanın aparıcı universitetlərinin və beynəlxalq təşkilatların alis-ekspertlərinin böyük əməyi var. Elm dövlət idarəçiliyinin səmərəliliyinin bir sıra üsullarını OESD, F.A.S.T, «İSO 900 Standartları» kimi üsulları işləyib hazırlamışdır. Dünya Bankı İnstitutu GRİCS (Goveranse Research İndicutor Country Snapshot) sistemini işləyib hazırlayıb. Bu sistem əsasən hökumətin təsirinin effektivliyi altı indekslə qiymələndirilir: səsvermə hüququ və hesabatlılıq; siyasi sabitik və zorakılığın olmaması; hökumətin səmərəliliyi qanunvericiliyin keyfiyyəti; qanunun aliliyi və korrupsiyaya nəzarət. Bu meyarlar bir qayda olaraq, dünyanın ən azı 200 ölkəsində araşdırılır.

Dissertasiyanın birinci fəslinin **«Azərbaycanın dövlət idarəçiliyində modernləşmə: yaranma və inkişaf xüssiyyətləri»** adlanan üçüncü yarımfəsilində qeyd olunur ki, beş min illik tarixə malik olan Azərbaycanın dövlət idarəçilik sistemində müxtəlif dövrlərdə təkamül və tərəqqi yolu ilə modernləşmə prosesi baş vermişdir və bu proses müasir dövrdə də davam edir. Müasir Azərbaycanın dövlət idarəçiliyində baş verən modernləşmənin əsası müsəlman Şərqində ilk demokratik dövlət idarəçilik sistemi yaradan Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qoyulmuşdur.

Buna görə də müasir Azərbaycan Respublikasının dövlət idarəçilik sistemi Azərbaycan Xalq Cümhuriyyətinin dövlət idarəçilik sisteminin siyasi varisidir. Müasir Azərbaycan Respublikasının dövlət idarəçilik sistemindəki bu siyasi varislik 18 oktyabr 1991-ci il Azərbaycan Ali Sovetinin qəbul etdiyi dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında öz əksini tapdı. Müasir Azərbaycanın dövlət idarəçilik sistemində baş verən modernləşmənin ən mühüm hüquqi sənədi 1995-ci il 12 noyabr tarixində ümumxalq referendumu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasıdır. Konstitusiyada ilk dəfə olaraq dövlət idarəçilik sisteminin inkişaf edilməsi və modernləşdirilməsi məqsədilə hakimiyyətin bölünməsi prinsipinin, dövlət idarəçiliyinin, dövlət-vətəndaş münasibətlərinin, insan hüquq və azadlıqlarının qanunverici əsasları təsbit olunmuşdur.

Azərbaycan Respublikasının dövlət idarəçilik sistemində modernləşmənin inkişaf etdirilməsi, dövlət idarəçiliyinin operativliyinin, səriştəliliyinin və əlçatanlığının təmin edilməsi məqsədilə 26 sentyabr 2016-ci il tarixində referendum yolu lə Azərbaycan Respublikasının Konstitusiyasında dəyişiklik edildi. Dəyişikliyin ən mühüm maddəsi dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi məqsədilə idarəetmədə davamlılığın pozulmaması üçün vitseprezidentlik institutunun təsis edilməsi oldu. Vitse-prezidentlik institutu Birinci vitse-prezident və vitse prezidentlərdən ibarətdir. Birinci vitse-prezident vəzifəsi ölkədə ikinci ən mühüm konstitusion vəzifədir. Azərbaycan Respublikasının ilk və hazırkı Birinci vitse-prezidenti səlahiyyətlərini 21 fevral 2017-ci ildən icra edən Mehriban xanım Əliyevadır. Mehriban xanım Əliyeva Azərbaycanın dövlət idarəçiliyində, xüsusilə də elm, təhsil, mədəniyyət, səhiyyə, idman və s. sahələrində böyük işlər görür.

Azərbaycan Respublikasının dövlət idarəçilik sisteminin modernləşdirilməsində «Elektron hökumət», «ASAN xidmət», «Asan imza», «DOST Agentliyi» kimi xidmət mərkəzlərinin yaradılmasının mühüm əhəmiyyəti vardır. Dövlət idarəçilik sistemində yeni yaradılan bu qurumlar operativliyi, şəffaflığı və vətəndaşların məmnunluğunu təmin edir.

Dissertasiya işinin **«Azərbaycan Respublikasının dövlət idarəçiliyində modernləşmənin prioritet istiqamətləri»** adlanan ikinci

fəsli üç yarımfəsildən ibarətdir. İkinci fəslin **«Dövlət idarəçiliyi sistemində modernləşmənin hüquqi əsasları»** adlanan birinci yarımfəslində bildirilir ki, dövlət idarəçiliyinin modernləşdirilməsinə həmişə idarəetmə fəaliyyət köhnə, zamanın tələblərinə cavab verə bilməyən hüquqi əsasları maneçilik törədir. Hüquq çitemində islahatların aparılması dövlət idarəçiliyi sahəsində keyfiyyətin yüksəldilməsinə səbəb olur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası hüquq sisteminin modernləşdirilməsinin aktuallığı və əhəmiyyəti hazırkı vaxtda hüquq sistemində ardıcıl islahatların aparılması, hüquqa, qanunvericiliyə yeni anaşmalara olan tələbatların yaranması, sosial-hüquqi dövlətin və onun intitutlarının formalaşması ilə müəyyən olunur. Müasir Azərbaycanın dövlət idarəçiliyində hüquq sisteminin modernləşdirilməsinin ilk islahatçı modernizatoru Ümumilli lider Heydər Əliyevdir. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının hüquq sisteminin modernləşdirilməsinin hüquqi bazası olan müstəql Azərbaycan dövlətinin ilk hüquqi-demokratik Konstitusiyası yaradıldı.

Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi ilə Azərbaycanda hüquqi dövlət quruculuğunun bönövrəsi qoyuldu. Hüquqi dövlət quruculuğunun bərqərar edilməsi məqsədilə məhkəmə-hüquq sistemində ardıcıl islahatlar aparıldı. Mahiyyət etibarı ilə hüquqi islahatlar qanunların və digər normativ-huquqi aktların hazırlanması, hüquqi informasiya sisteminin genişləndirilməsi məhkəmə və huquq-mühafizə sistemindəki islahatları özündə əks etdirirdi. Beləliklə, Ümumilli lider Heydər Əliyevin rəhöərliyi altında dövlət idarəçiliyinin modernqləşdirilməsinin hüquqi əsaslarının təmin edilməsi məqsədilə həyata keçirilən məhkəmə-hüquq islahatlarının ilk mərhələsində demokratik və humanist ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni üçpilləli məhkəmə sistemi, konstitusiya nəzarət sistemi, insan hüquqları üzrə müvəkkillik (Ombudsman) İnstitutu yaradılmış, hüquq-mühafizə orqanlarının fəaliyyəti təkmilləşdirilmiş, qeyri-hökumət təşkilatlarıqın və kütləvi informasi ya vasitələrinin fəaliyyətləri genişləndirilmiş, insan hüquqlarının müdafiəsi sahəsində effektli idarə-

etmə mexanizmləri formalaşdırılmışdır. Hazırda Prezident İlham Əliyev tərəfindən dövlət idarəçiliyinin modernləşdirilməsində hüquqi islahatlar uğurla davam etdirilir.

Dissertasiyanın ikinci fəslinin ikinci yarımfəsli «Dövlət idarəçiliyi sistemində innoasiyalara əsaslanan iqtisadi modernləşmənin spesifik xüsusiyyələr» adlanır. Bu yarımfəsildə Azərbaycan Respublikasının dövlət idarəçiliyi sistemində iqtisadi modernqləşmənin spesifik xüsusiyyətləri təhlil edilmişdir. Qeyd olunur ki, «iqtisadi modernləşmə» anlayışı inkişaf səviyyəsinə görə qabaqcıl ölkələrlə müqayisədə geriliyin aradan qaldırılması, yenilənmə yolu ilə müasir inkişaf etmiş ölkələr sırasına çıxmağı özündə ifadə edir. Hazırda Azərbaycan hökuməti iqtisadi modernləşmə ilə bağlı iri miqyaslı proqram layihələri və komples tədbirdəri həyata keçirir. Mövcud iqtisadi strukturların bəopası, yeni iqtisadi institutların yaradılması və inkişafı, həmçinin istehsala yeni texnologiyaların tətbiqi Azərbaycan iqtisadiyyatının tərəqqisinə səbəb olur. Məhz tətbiq edilən innovasiyalar iqtisadiyyatın modernləşməsinə yeni təkan verir, kiçik və orta biznesin inkişafına səbəb olur, yeni iş yerləri yaradılır və insanların həyat səviyyəsini yüksədir.

Azərbaycanın dövlət idarəçiliyi sistemində iqtisadi modernləşmə radikal aqrar islahatların aparılması ilə başlamışdır. Ümumilli lider Heydər Əliyevin təşəbbüsü ilə torpaq islahatları ilə bağlı məsələlər Milli Məclisin müzakirəsinə verildi. 1996-cı il iyulun 16-da «Torpaq islahatı haqında» Qanun qəbul edildi və torpaq kəndlilərə verildi. Prezident İlham Əliyev Heydər Əliyevin aqrar modernləşmə siyasətini uğurla davam etdirməyə başladı. Vətəndaşların torpaq mülkiyyəti hüquqi haqqında dövlət aktları ilə təmin edilməsi və özəlləşdirilən torpaqların qanuni sahiblərinə verilməsi ilə torpaq islahaları başa çatdırıldı.

Azərbaycan iqtisadiyyatında sənayenin modernləşdirilməsi dövlət idarəçiliyi sistemində iqtisadi modernqləşmənin mühüm istiqamətlərindən biridir. Müasir dövrdə Azərbaycan Respublikasında sənayenin kimya, neft məhsulları, metallurgiya, tikinti materialları, əczazılıq, rezin və plasmas, hazır metal məmulatları, kompüter və digər elektron avadanlıqlar, maşın və maşın avadanlıqları istehsalı, elektrik enerjisi və elektrik avadanlıqları, qaz və buxar istehsalı, su təchizatı, tullantı-

ların təmizlənməsi və emalı, kosmik sənaye və s. sahələrin modernləşdirilməsi iqtisadi mordernləşmənin mühüm sahələrini təşkil edir. Azərbaycanın dövlət idarəçilik sistemində iqtisadi modernləşmənin həyata keiçrilməsində qısa və orta müddətli dövlət proqramlarının qəbul edilməsi mühüm mərhələni təşkil edir.

Dövlət idarəçilik sistemində iqtisadi moderinləşmənin başlıca istiqamətlərindən birini innovasiyaya əsaslanan inkişaf təşkil edir. Ümumiyyətlə, innovasiya olmadan modernləşmə mümkün deyil. İstənilən modenrləşmə innovasiya əsasında həyata keçirilir. Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafında əldə etdiyi uğurların əsasında iqtisadi modernləşmə və innovasiyalar durur.

İkinci fəslin **«Sosial dövlətin bərqərar edilməsi sosial modernləşmənin başlıca məqsədi kimi»** adlanan üçüncü yarımfəslində qeyd olunur ki, Azərbaycan Respublikasında dövlət idarəçiliyi sisteminin modernləşdirilməsinin başlıca istiqamətlərindən biri də sosial dövlətin bərqərar edilməsidir. Azərbaycan Respublikasının dövlət idarəçiliyində sosial modernləşmənin həyata keçirilməsi məqsəd deyil, ardıcıl bir prosesdir. Məqsəd isə güclü sosial dövlət yaratmaqdar. Güclü sosial dövlətin yaradılması isə sosial modernləşmə vasitəsi ilə baş verir. Sosial modernləşmə sosial sahədə baş verən bir çox dəyişiklikləri özündə ehtiva edir. Sosial sahədə baş verən bu dəyişikliklərə vətəndaşların sosial mobilliyinin və həyat səviyyəsinin yüksəldilməsini, sosial siyasətin və vətəndaş cəmiyyətinin güclü institutlarının formalaşdırılmasını, insan kapitalının əhəmiyyətinin yüksəldilməsini, əhalinin təhsil səviyyəsinin yüksəldilməsini, maddi və qeyri-maddi nemətləri əldə etmək şansının genişləndirilməsini və s.aid etmək olar. Sosial dövlətin bərqərar edilməsi istiqamətində dərin sosial-iqtisadi islahatlar aparılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev prezident seçildiyi ilk gündən sosial dövlət yaradılmasının qarşısına başlıca məqsəd qoyduğunu bəyan etmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında sosial dövlətin bərqərar edilməsi və sosial modernləşmənin həyata keçirilməsində ən mühüm amillərdən biri də dövlət-vətəndaş münasibətlərində obyektivliyə, sosial ədalətə, şəffaflığa və aşkarlığa nail olmaqdır. Ümu-

miyyətlə, hüquqi dövlət, vətəndaş cəmiyyəti və sosial dövlət quruculuğu prosesində dövlət-vətəndaş münasibətlərində yüksək səviyyəli vətəndaş məmnunluğuna nail olunması vacib və zəruri şərtlərdəndir. Vətəndaş məmnunluğunun əldə edilməsi isə dövlət idarəçiliyi sistemində keyfiyyət dəyişiklikliyini tələb edir. Dövlət idarəçiliyi sisteminin modernləşdirilməsi, şəffaflığın artırılması və yeni idarəetmə metodlarının formalaşdırılması istiqamətində «ASAN xidmət» və «DOST Agentliyi»nin yaradılmasının məqsədi korrupsiyanın, rüşvətxorluğun, süründürməçiliyin qarşısının alınması, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, innovativ həll yollarının tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. Hazırda «ASAN xidmət»in və «DOST Agentliyi»nin fəaliyyəti ilə bağlı vətəndaş məmnunluğu 98 faiz təşkil edir. Beləliklə, Azərbaycan dövləti sosial dövlətdir və Azərbaycanın sosial dövlət modeli dünyanın inkişaf etmiş demokratik dövlətlərinin müsbət, ümumbəşəri dəyərləri və milli-mənəvi dəyərləri əsasında yaradılmışdır.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqat işi yekunlaşdırılmış, ümumiləşdirilmələr aparılmış, əldə olunan son nəticələr təqdim olunmuş, bunların əsasında nəzəri və praktiki əhəmiyyət daşıyan təklif və tövsiyələr verilmişdir. İddiaçı belə qənaətə gəlir ki, Azərbaycan Respublikasının dövlət idarəçiliyi sisteminin sosial, iqtisadi, siyasi, hüquqi, hərbi və s. sahələrində uğurlu modernləşmə prosesi baş vermişdir. Azərbaycanın dövlət idarəçiliyində hərbi modernləşmənin uğurları nəticəsində 44 günlük Vətən müharibəsində düşmən üzərində qələbə çalınmışdır.

Müstəqil Azərbaycan dövlətində Qərb modernləşmə təcrübəsi əsasında dünyanın demokratik dövlətlərinə nümunə ola biləcək demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyəti bərqərar edilmişdir. Müasir Azərbaycanın dövlət idarəçiliyində modernləşmənin başlıca istiqamətləri aşağıdakılardır: siyasi modernləşmə, hüquqi modernləşmə, iqtisadi modernləşmə, sosial modernləşmə, mədəni modernləşmə və s.

Azərbaycanın dövlət idarəçilik sistemində modernləşmənin vacib və başlıca şərti kimi ictimai-siyasi sabitlik yaradılmış, dövlət idarəçiliyi sistemində modernləşmənin başlıca hüquqi bazası kimi Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilmiş, Azərbaycanın dövlətçilik tarixində ilk dəfə orlaraq yeni hüquq institutu - Konstitusiya Məhkəməsi

yaradılmış, dövlət idarəçilik sistemində iqtisadi modernləşmənin başlıca istiqamətləri müəyyən edilmiş, dövlət idarəçiliyi sistemində baş verən sosial modernləşmə nəticəsində sosial dövlət yaradılmışdır.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı dərc olunmuş elmi əsərlərində öz əksini tapmışdır**:

1. "Azərbaycanda sosial dövlətin yaradılmasında sosial modernləşmənin mühüm xüsusiyyətləri" Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə Elmi-nəzəri jurnal, ISSN 2309-1347, 2021, № 1 (73), səh. 289-296

2. "Azərbaycan Respublikasında dövlət idarəçilik sisteminin modernləşməsinin aktual məsələləri" Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi, Elmi Əsərlər İctimai və humanitar elmlər seriyası № 3, Naxçıvan, "Tusi" nəşriyyatı 2021, ISSN 2218-4783, Cild 17, səh.68-74.

3. "Azərbaycanda iqtisadi modernləşmənin əsas istiqamətləri" Pedaqoji Universitetin Xəbərləri.Humanitar, ictimai və pedaqoji elmlər seriyası- 2021, C.69, №2, səh. 95-103.

4. «Правовые основы модернизации в государственном управлении Азербайджанской Республики» Вестник БИСТ (Башкирского института социальных технологий) Серия «Общественные науки». 202. № 2 (51) стр.46-53.https://vestnik-bist.ru/wp-content/uploads/2021/07/ Vestnik BIST _2-2021_s.pdf

5. "İdarəetmə fəaliyyətinin effektivliyi dövlət idarəetmə sisteminin modernləşməsinin meyarı kimi".Geostrategiya beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. İyul-avqust, 2021 № 04 (64). səh. 26-31. https://geostrategiya.az/pdf/2021/0464.pdf

6. "Müasir Azərbaycanda modernləşmənin innovativ təzahürləri" Geostrategiya beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. Yanvar-fevral, 2022, № 01, səh.26

***Konfrans materialı***

7. "Dövlət idarəçiliyinin modernləşdirilməsi probleminin nəzəri-metodoloji təhlili", "Heydər Əliyev irsi və Azərbaycan Respublikasında innovativ dövlət idarəçiliyi islahatları" mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransının materialları. Azərbaycan

Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı, "Təhsil" nəşriyyatı, 2017, səh. 262-267.

8. "Azərbaycanın dövlət idarəçiliyində modernləşmənin yaranması və inkişafı prosesinin xüsusiyyətləri" "Azərbaycanda regional inkişafın idarə olunmasında müasir istiqamətlər" mövzusunda Respublika Elmi-Praktik Konfransının materialları, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı, "Aspoliqraf" nəşriyyatı, 2019, səh.317-325.

9. "Modernleşme sürecinde Azerbaycan Cumhuriyeti'nde sosyal devlet ve sosyal hizmetler". Social stste and social services in the Republic of Azerbaijan in the process of modernization. 2nd International Economics and Business Symposium (Effects of Covid-19 in All Dimensions) Proceeding And Abstract Book ISBN 978-975-93937-1-7, 27-28 May 2021, Gaziantep/TURKEY, 2.Uluslararası Ekonomi ve İşletme Sempozyumu. s.274-279.

Dissertasiyanın müdafiəsi “29” noyabr 2023-cü il tarixində saat 14.00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1001, Bakı şəhəri, Lermantov küçəsi, 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “____” __________2023-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.10.2023

Kağızın formatı: A5

Həcm: 37415

Tiraj: 80